# Naşir ömrü



**İnsanın fiziki ömrünün başa çatdığı gün mənəvi ömrü başlayır. Elə əsl ömür də odur. Hamı ictimai xadim, dahi şəxsiyyət ola bilməz. Amma qurub-yaratdıqların, xeyirxahlığın, xoş əməllərinlə tarixdə doğmalarının, dostlarının, səni tanıyanların, sevənlərinin yaddaşlarında mənən yaşamaq da elə ömürdür. Bu fikri ölkənin mədəniyyət və təhsil həyatında tanınan insanlardan biri olmuş naşir Bəhruz Axundov vaxtilə söyləmişdi, elə özü də belə bir ömür yaşadı. Mədəniyyət, təhsil, nəşr və poliqrafiya sahəsindən söz düşəndə xidmətlərinə görə daim xatırlanacaq, adı ehtiramla çəkiləcək.**

Ölkə həyatının aktual mövzuları ilə bağlı ondan müxtəlif səpkili müsahibələr almışam. İlk görüşümüzdən illər keçdikcə, söhbətlərimizin zamanı, məkanı dəyişsə də, xarakterindəki bütövlük heç zaman dəyişmədi. Həmişə onunla söhbəti qələmə alsam da, indi özünün olmadığı çərçivədə, söhbətlərimizin yaddaşıma həkk olunmuş unudulmaz məqamlarını xatırlayıram, xəyalən bu ardıcıllığı qorumağa çalışıram. Vaxtın azlığını, görüləcək işlərin çoxluğunu bildirsə də, ictimai hadisələrə, nəşriyyat-poliqrafiya sahəsinin inkişafı ilə bağlı mövqeyini, düşüncələrini ifadə edər, bunu vacib sayardı. Obyektivlik, dürüstlük onun özünü ifadə etmək kriteriyası idi. Zəhmət, qətiyyət, işinə məsuliyyət, tələbkarlıq, səmimiyyət onun uğurlarının istinad nöqtəsi idi. Bu keyfiyyətlər ona nüfuz qazandırdı. Tanınmış naşir Bəhruz Axundov Azərbaycan Naşirlər və Poliqrafçılar İctimai Birliyinin sədri, "Təhsil Nəşriyyat-Poliqrafiya" MMC-nin baş direktoru olub.

Bəhruz Həsən oğlu Axundov 1954-cü il yanvarın 2-də Ağdam şəhərində ziyalı ailəsində anadan olmuşdu. Deyirdi: "Ailə baxımından özümü bəxti gətirmişlərdən hesab edirəm. Ziyalı ailəsində dünyaya gəlmişəm. Atam Həsən Axundov Qarabağda hamı tərəfindən qəbul olunan mötəbər bir ağsaqqal, tanınmış şəxsiyyət olub. İşlədiyi vəzifələr bir yana, altmış dörd illik pedaqoji təcrübəsi vardı. Məni tanımayanlar üçün gəncliyimdə tərcümeyi-halım bir cümlədən ibarət olub: Həsən Axundovun oğludur". 1977-ci ildə ADU-nun (İndiki Bakı Dövlət Universiteti) jurnalistika fakültəsini bitirib. 1980-ci ilə qədər müxtəlif məsul vəzifələrdə çalışıb. Ağdam Rayon Komsomol Komitəsinin katibi, ikinci katibi olub. 1981-ci ildən əmək fəaliyyəti Bakı şəhəri ilə bağlıdır. Bakı "Yeni kitab" mətbəəsində (sonralar 3 №-li mətbəə) daha sonra "Kommunist" (indiki "Azərbaycan") nəşriyyatında müxtəlif vəzifələrdə işləmiş (1981-1984), Azərbaycan Respublikası Maarif Nazirliyi (İndiki Təhsil Nazirliyi) mətbəəsinin direktoru (1985-1992) vəzifəsində çalışmışdır. 1992-ci ilin sonlarında Azərbaycanda yaradılan son, müstəqil respublikamızın isə ilk dövlət nəşriyyatı olan "Təhsil"in yaradıcısı və direktoru olmuş, özəlləşdirmə proqramı həyata keçirilənədək bu vəzifədə çalışmışdır. 2007-ci ildən 2017-ci ilədək "Təhsil Nəşriyyat-Poliqrafiya" MMC-nin təsisçisi və baş direktoru olub.

Mənalı ömrünü nəşriyyat sahəsinə bağlayan, otuz ildən çox fəaliyyəti ilə bu sahənin inkişafına dəyərli töhfələr vermiş Bəhruz Axundov kitab çapının, naşirlik işinin onun üçün əqidə məsələsi olduğunu qürurla bildirirdi. Deyirdi: "Jurnalistik fəaliyyətim olub, yazıçılıqla da məşğul oluram. Yazıçılar Birliyinin üzvüyəm, bir neçə kitabın müəllifiyəm. Pedaqoji fəaliyyətim var, universitetdə dərs deyirəm. Gənclik vaxtlarımdan bəri məsul vəzifələrdə də çalışmışam, elmi işlə də məşğulam, dosentəm. Amma qəlbən və ruhən daha çox naşirəm. Mən özümü naşirlikdə tapmışam".

Bəhruz Axundovun rəhbərliyi ilə yüzlərlə adda dərslik və dərs vəsaiti, ictimai-siyasi, elmi-kütləvi, bədii-publisistik ədəbiyyatlar və akademik nəşrlər işıq üzünü görmüşdür. "Təhsil" nəşriyyatı 2005 və 2010-cu illərdə "İlin nəşriyyatı", nəşr etdiyi kitabların bir çoxu "İlin kitabı" adını almışdır.

Müstəqil Azərbaycanın milli təhsil sisteminin qurulması ilə əlaqədar yeni tədris proqramları əsasında latın qrafikasında buraxılan ilk milli dərsliklərin böyük əksəriyyəti də məhz Bəhruz Axundovun rəhbərliyi ilə nəşr olunmuşdur. Müxtəlif siniflər üçün "Azərbaycan tarixi", "Azərbaycan coğrafiyası", "İnsan və cəmiyyət", "Ədəbiyyat", "Azərbaycan dili", "Yerşünaslıq", "Türk dünyasının coğrafiyası", "Gənclərin çağırışaqədərki hazırlığı", "Həyat bilgisi" və digər 70-ə yaxın dərslik məhz onun xüsusi əməyi sayəsində "Təhsil" nəşriyyatında hazırlanıb şagirdlərin istifadəsinə verilmişdir. Bu kitablar keyfiyyətinə və tərtibatına görə həmişə seçilirdi. İlk dəfə respublikamızda şagirdlər üçün "İş dəftəri" əlavə dərs vəsaitlərinin də ünvanı "Təhsil" nəşriyyatı olub.

Bəhruz Axundovun naşiri və tərtibçisi olduğu onlarca nəşr nümunələri nüfuzlu beynəlxalq kitab sərgilərində ölkəmizi layiqincə təmsil etmiş, mütəxəssislər tərəfindən yüksək qiymətləndirilmişdir. Onun naşiri olduğu, 6 dildə nəşr edilmiş 2005-ci ildə beynəlxalq "Kitab sənəti" müsabiqəsinin qalibi "Qarabağ: real tarix, faktlar, sənədlər" kitabı 2012-ci ildə Azərbaycan Respublikasının "Dövlət mükafatı"na layiq görülmüşdür (Müəlliflər Yaqub Mahmudov, Kərim Şükürov). Bundan başqa, daha üç kitab - Çingiz Əlioğlunun "Atlantlar", Vaqif Bəhmənlinin "Novruz", M.Ə.Sabirin "Hop-hopnamə" kitabları da beynəlxalq "Kitab sənəti" müsabiqəsinin qalibi olmuşdur. Onun tərtibçisi və naşiri olduğu "Çərçivə" kitabı respublikanın nəşriyyat və poliqrafiya tarixində ilk dəfə Moskva şəhərində təşkil olunan "Kitab sənəti" beynəlxalq kitab müsabiqəsinin baş mükafatına - "Qran-Pri"yə layiq görülmüşdür.

Bəhruz Axundovun rəhbərlik etdiyi "Təhsil Nəşriyyat-Poliqrafiya" MMC beynəlxalq aləmdə də bir sıra uğurlara imza atmışdır. Belə ki, nəşriyyat 2012-ci ildə dünyanın ən nüfuzlu qurumlarından biri sayılan Beynəlxalq Ticarət Liderləri Klubunun (İspaniya, Madrid), "Keyfiyyətə görə" qızıl medal və xüsusi prizinə layiq görülmüşdü. Elə həmin il "Təhsil" nəşriyyatı Beynəlxalq Tədqiqatlar və Məsləhətlər Təşkilatı OMAK - Beynəlxalq Menecment Assosiasiyası Klubunun (Almaniya, Berlin) 50 ölkənin 60-dan çox təşkilatı arasında nəşriyyat və poliqrafiya üzrə yeni texnologiyaların tətbiqi nəticəsində əldə edilən yüksək keyfiyyətə görə "Naviasiya və keyfiyyətə görə Yeni Era" beynəlxalq mükafatını və xüsusi diplomlarını almışdı. 2012-ci ildə keyfiyyət və kommersiya prestijinə görə "Avropanın Qızıl mükafatı"na (Fransa, Paris) layiq görülmüşdü.

Nəşriyyat ölkəmizdə kitaba marağın artırılması istiqamətində real işlər görüb. Kitabla bağlı tədbirlər keçirilib, gənc şair və yazıçıların ilk kitablarının nəşrinə dəstək vermişdir. "Təhsil" nəşriyyatı yeganə müəssisədir ki, özünün "Kitab evi" var. Məhz bu cür nəşriyyat və poliqrafiya müəssisələrinin uğurlu fəaliyyəti sayəsində kitaba, oxuya marağın yüksəldiyini deyə bilərik.

Bəhruz Axundov nəşriyyat-poliqrafiya sahəsində mütəxəssis hazırlığına da öz dəstəyini əsirgəmirdi. O, 2006-cı ildən Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində müəllim, baş müəllim, 2011-ci ildən ömrünün sonuna kimi dosent vəzifəsində çalışmışdır. Təcrübəli naşir-publisist öz sevimli peşəsini tələbələrinə də həvəslə öyrədirdi. O, "Azərbaycanca-rusca, rusca-Azərbaycanca atalar sözləri və zərb məsəllər lüğəti" (İlyas Həmidov, Bəhruz Axundov, Leyla Həmidova), "Nəşriyyat işinin əsasları" (Bəhruz Axundov, Mahmud Mahmudov), "Nəşriyyat-poliqrafiya və jurnalistika terminlərinin izahlı lüğəti" (Bəhruz Axundov, Rəhimağa İmaməliyev, Mahmud Mahmudov) onlarca məqalə, publisistik yazıların, şeir və hekayələrin müəllifi, ali məktəblər üçün hazırlanmış dörd tədris proqramının tərtibçisi, 100-dən çox kitabın naşiridir. Bəhruz Axundov 2012-ci ildə yeni təsis edilmiş Azərbaycan Naşirlər və Poliqrafçılar Birliyinin sədri seçilmişdi. Azərbaycan Yazıçılar Birliyinin, Azərbaycan Ağsaqqallar Şurasının, Avrasiya Yazıçıları Birliyinin üzvü idi. 2013-cü ildə Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə "Əməkdar mədəniyyət işçisi" adına layiq görülmüşdü. Deyirdi: "Mənim həyatım qaçhaqaçlarda keçib. Neçə yaşım olduğunu, nə iş gördüyümü düşünməyə vaxtım olmayıb. Hamıya aid olan istirahət günü bəzən mənə aid olmayıb. Həmişə ən böyük amalım millətə, dövlətə və dövlətçiliyə xidmət olub. Ömrüm boyu bu amal uğrunda mübarizə aparmışam". Ömür yoluna nəzər salanda aydın görünür ki, o, buna da nail olmuşdu. Bu gün onun işlərini, yarımçıq qalmış layihələrinin reallaşdırılmasını oğlu Tural Axundov davam etdirir. İşində ona görkəmli naşir Bəhruz Axundovdan öyrəndiyi təcrübə ən böyük dəstəkdir. Yanvar ayının 2-də, Bəhruz Axundovun doğum günündə əzizləri, yaxınları, dostları, tanıyanları onun işığına toplaşacaq, xatirələr danışacaq, bu hər zaman da belə olacaq. Onun sağlığında əməlləri ilə yandırdığı nur çırağı uzun müddət sönməyəcək.

**Mustafa KAMAL,**
**"Respublika".**